DOI https://doi.org/10.36719/2707-9317/118/61-72

Ways to ensure the sustainability of the pension system in the Republic of Azerbaijan

Vafa Hashimova
PhD in Economics,
Leading Researcher, Institute of Economics of the Ministry of Science and Education of the Republic of Azerbaijan,
Senior Lecturer, Azerbaijan Technical University
vafahashimova86@gmail.com
https://orcid.org/0000-0002-0392-1329

Abstract: The article provides a comprehensive analysis of the sustainability of the pension system of the Republic of Azerbaijan in the context of contemporary demographic and economic challenges. Using statistical comparative analysis and forecasting methods, the study examines key indicators such as the ratio of pension expenditures to GDP, the ratio of active to passive insured persons, the old-age dependency ratio, the pension replacement rate, the ratio of the minimum pension to the subsistence minimum for pensioners, as well as projections of mandatory state social insurance revenues and expenditures of the State Social Protection Fund through 2030.The findings indicate that although the share of pension expenditures in GDP increased during 2006–2024, a 65% rise in the number of insured persons and an improvement in the active-to-passive ratio from 2.4 to 4.7 significantly strengthened the financial sustainability of the system. The minimum pension exceeding the subsistence minimum by 137.9% ensures the social adequacy of pension benefits. Forecast results suggest continued growth in social insurance revenues; however, by 2030 these revenues are expected to fall short of fully covering fund expenditures. The article emphasizes the importance of investing pension fund assets and expanding digitalization as key policy directions for enhancing the long-term sustainability of the pension system.

Keywords: pension, pension expenditures, sustainability, insured persons

Azərbaycan Respublikasında pensiya sisteminin dayanıqlığının təmin edilməsi yolları

Vəfa Həşimova
i.f.d., AR ETN İqtisadiyyat İnstitutunun aparıcı elmi işçisi,
Azərbaycan Texniki Universitetinin baş müəllimi
vafahashimova86@gmail.com
https://orcid.org/0000-0002-0392-1329

Xülasə: Məqalədə Azərbaycan Respublikasında pensiya sisteminin dayanıqlılığı müasir demoqrafik və iqtisadi çağırışlar fonunda kompleks şəkildə təhlil edilir. Tədqiqatda statistik müqayisəli təhlil və proqnoz metodlarından istifadə olunaraq pensiya xərclərinin ÜDM-ə nisbəti, aktiv və passiv sığortalıların nisbəti, yaşlılıqdan asılılıq əmsalı, pensiyaların əvəzetmə əmsalı, minimum pensiyanın yaşayış minimumuna nisbəti, eləcə də MDSSH gəlirləri və DSMF xərclərinin 2030-cu ilə qədər proqnozları araşdırılmışdır. Nəticələr göstərir ki, 2006–2024-cü illərdə pensiya xərclərinin ÜDM-ə nisbəti artsa da, sosial sığortaolunanların sayının 65% yüksəlməsi və aktiv-passiv nisbətin 2,4-dən 4,7-yə çatması sistemin maliyyə dayanıqlığını gücləndirmişdir. Minimum pensiyanın yaşayış minimumunu 137,9% üstələməsi sosial adekvatlığı təmin edir. Proqnozlar MDSSH gəlirlərinin artacağını, lakin 2030-cu ildə DSMF xərclərini tam ödəməyəcəyini göstərir. Məqalədə pensiya fondlarının investisiyalaşdırılması və rəqəmsallaşmanın genişləndirilməsi uzunmüddətli dayanıqlılıq üçün əsas tövsiyələr kimi irəli sürülür.

Açar sözlər: pensiya, pensiya xərcləri, dayanıqlıq, sığortaolunanlar

Problemin qoyuluşu.

Azərbaycan Respublikasında pensiya sistemi sosial müdafiə sisteminin əsas tərkib hissəsidir və əhalinin yaşlandığı, əmək bazarının dəyişdiyi müasir şəraitdə onun maliyyə dayanıqlığının təmin olunması dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Pensiya sistemləri əhalinin yaşlanması, doğum səviyyəsinin azalması və əmək bazarının dəyişməsi fonunda bütün dünyada dayanıqlılıq problemləri ilə üz-üzədir. Dayanıqlı pensiya sistemi uzunmüddətli maliyyə sabitliliyi, sosial ədalətlilik və institusional davamlılıq kimi meyarlarla qiymətləndirilir. Əhalinin yaşlanması, doğum səviyyəsinin azalması və iqtisadi qeyri-sabitlik şəraitində mövcud pensiya sistemlərinin davamlılığı ciddi şəkildə sınağa çəkilir. Bu səbəbdən "dayanıqlı pensiya sistemi" anlayışı müasir iqtisadi və sosial siyasətlərin əsas prioritetlərindən birinə çevrilmişdir.

Dayanıqlılıq anlayışı iqtisadi, sosial və institusional sistemlərin uzunmüddətli fəaliyyət qabiliyyətini ifadə edir. Pensiya sistemində isə bu termin maliyyə sabitliyi, sosial ədalət və adekvat təminat meyarlarının birləşməsi ilə xarakterizə olunur. Pensiya sistemində dayanıqlılıq o zaman mövcud olur ki:

- Sistem uzunmüddətli dövrdə öz öhdəliklərini yerinə yetirə bilsin;
- Cari və gələcək nəsillər üçün ədalətli və sabit təminat təmin olunsun.

Pensiya sisteminin dayanıqlılığı, ilk növbədə, onun maliyyə dayanıqlığı ilə müəyyən edilir. Əgər pensiya fondu öz-özünü maliyyələşdirə bilmirsə, dövlət büdcəsi üzərində əlavə maliyyə yükü yaranır. Bu isə fiskal sabitliyi poza, büdcə kəsirini artıra və uzunmüddətli iqtisadi sabitliyə mənfi təsir göstərə bilər. Dayanaqlı pensiya sistemi, əksinə, gəlir və xərclər arasında tarazlığı qoruyaraq dövlətin maliyyə resurslarının səmərəli bölüşdürülməsini təmin edir. Dayanıqlı pensiya sistemi yalnız yaşlı əhalinin maddi təminatını deyil, həm də dövlətin iqtisadi sabitliyini və sosial ədalət prinsipinin reallaşmasını təmin edir. Pensiya sisteminin dayanıqlılığı həm də ölkədə əmək bazarının şəffaflığı ilə sıx bağlıdır. Kölgə iqtisadiyyatı və qeyri-formal məşğulluq səviyyəsinin yüksək olması sosial sığorta haqlarının azalmasına, nəticə etibarilə pensiya fonduna daxilolmaların zəifləməsinə səbəb olur. Bu problemi aradan qaldırmaq üçün vergi və sosial sığorta mexanizmlərinin sadələşdirilməsi, işəgötürənlərin və

işçilərin rəsmi əmək münasibətlərinə cəlb edilməsi, eləcə də rəqəmsal uçot sistemlərinin tətbiqi vacib hesab olunur. Belə tədbirlər uzunmüddətli perspektivdə pensiya fondunun gəlirlərini artırır və sistemin maliyyə dayanıqlığını gücləndirir.


Müasir iqtisadi şəraitdə Azərbaycanda pensiya sisteminin dayanıqlılığı həm sosial, həm də maliyyə baxımından strateji əhəmiyyət daşıyır. Azərbaycan Respublikasında pensiya sisteminin dayanıqlılığını qiymətləndirmək üçün pensiya xərclərinin ÜDM-ə olan nisbəti, aktiv və passiv sığortalı nisbəti, pensiya yaşlı əhalinin əmək qabiliyyətli əhaliyə nisbəti, pensiyaların əvəzetmə əmsalı, minimum pensiya məbləğinin pensiyaçılar üçün yaşayış minimumuna nisbəti, gəlir-xərc nisbəti, müasir texnologiyaların tətbiqi kimi göstəricilərinə nəzər salaq.

1. Metodologiya və tədqiqat üsulları.

Hesabat işinin yerinə yetirilməsi zamanı statistik müqayisəli təhlil və proqnoz metodlarından istifadə edilmişdir. Tədqiqat işində Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin, eləcə də İƏİT-in və BƏT-in hesabatlarına istinad olunmuşdur.

2. Pensiya xərclərinin ÜDM-ə olan nisbəti.

Pensiya sisteminin dayanıqlığının ən mühüm göstəricilərindən biri məhz **pensiya xərclərinin ÜDM-ə olan nisbətidir**. Pensiya xərclərinin ÜDM-ə nisbəti iqtisadi və sosial tədqiqatlarda çox mühüm göstəricidir. Müasir sosial təminat modellərində pensiya sistemlərinin maliyyə dayanıqlılığı və iqtisadi adekvatlığı əsas hədəflərdən biri kimi çıxış edir. Bu çərçivədə pensiya xərclərinin ÜDM-ə olan nisbəti həm xərclərin ümumi iqtisadi yükünü, həm də sistemin dayanıqlılıq səviyyəsini əks etdirən mühüm makroiqtisadi göstəricidir. Bu nisbət ölkənin iqtisadi potensialı ilə pensiya sisteminə çəkilən yükü müqayisə etməyə imkan verir. Aşağıdakı qrafikdə Azərbaycanda pensiyaların xərclərinin ÜDM-ə nisbəti təsvir olunmuşdur.



Qrafik 1. Azərbaycanda pensiya xərclərinin ÜDM-ə nisbəti

Mənbə: *[2] məlumatları əsasında müəllif tərəfindən hesablanmışdır.*

Qrafik 1-ə əsasən Azərbaycanda pensiya xərclərinin ÜDM-ə nisbəti 2006-2022-ci illər ərzində 2,8%-dən 5,2%-ə yüksəlmişdir. İƏİT ölkələrində isə dövlət pensiya xərclərinin ÜDM-ə nisbəti ən yüksək Yunanıstanda (16,36%), İtaliyada (15,94%), Fransada (13,73%), Portuqaliyada (13,26%), Avstriyada (13,15%), ən az isə İslandiyada (2,59%), Çilidə (2,81%), Meksikada (3,1%), Koreyadadır (3,07%) [8]. Belə müqayisələr pensiya sisteminin səmərəliliyini və sosial təminat səviyyəsini qiymətləndirməyə imkan verir.

Əgər ÜDM artır, amma pensiya xərclərinin nisbəti də artırsa, bu o deməkdir ki, pensiya xərcləri iqtisadi artımdan daha sürətlə artır. Pensiya xərclərinin ÜDM-ə nisbəti sosial siyasətin iqtisadi dinamika ilə uyğunluğunu qiymətləndirməyə kömək edir. Bu nisbətin yüksək olması dövlət büdcəsində pensiya xərclərinin xüsusi çəkisinin çox olduğunu göstərir. Uzunmüddətli dövrdə isə bu, dövlət maliyyəsinin dayanıqlığı üçün risk yarada bilər.

3. Aktiv və passiv sığortalıların nisbəti.

Pensiya sistemlərinin dayanıqlılığını təmin edən əsas göstəricilərdən biri **aktiv və passiv sığortalıların nisbətidir**. Bu nisbət sistemin həm maliyyə sabitliyini, həm də demoqrafik davamlılığını qiymətləndirmək üçün açar indikator kimi çıxış edir.

Aktiv-passiv sığortalı nisbəti — pensiya sisteminin gələcək taleyini müəyyən edən başlıca göstəricilərdən biridir. Onun uzunmüddətli olaraq optimal səviyyədə saxlanması üçün aşağıdakı addımlar zəruridir:

- Rəsmi məşğulluğun təşviqi və qeyri-formal əmək bazarının azaldılması;
- Əmək qabiliyyətli əhalinin sığorta sisteminə cəlb olunması;
- İqtisadi islahatlarla işçi qüvvəsinin artırılması (gənclər, qadınlar, miqrantlar);
- Əlavə yığım sistemlərinin inkişafı və fərdi hesabların təşviqi.

Cədvəl 1.

Azərbaycanda aktiv-passiv sığortalı nisbəti

	2015	2016	2017	2018	2019	2020	2021	2022	2023	2024
Sığortaolunanların sayı, milyon nəfər	3,15	3,32	3,53	3,71	3,93	4,38	4,6	4,8	5,0	5,2
Pensiyaçıların sayı, milyon nəfər	1,29	1,3	1,32	1,31	1,29	1,27	1,23	1,2	1,1	1,1
Aktiv-passiv sığortalı nisbəti	2,4	2,7	2,67	2,8	3	3,5	3,7	4	4,5	4,7

Mənbə: *[2] və [4] məlumatları əsasında müəllif tərəfindən hesablanıb.*

Cədvəl 1-ə əsasən 2015–2024-cü illər ərzində sığortaolunanların sayı 3,15 mln-dan 5,2 mln-a qədər artıb, yəni təxminən 65% artım olmuşdur. Həmçinin pensiyaçıların sayında təxminən 15% azalma müşahidə olunmuşdur. 2015-də hər 1 pensiyaçıya 2,4 işləyən düşürdüsə, artıq 2024-də bu rəqəm 4,7 olmuşdur. Bu, pensiya sisteminin maliyyə dayanıqlığının gücləndiyini göstərir, çünki daha çox sığortaolunan az sayda pensiyaçı üçün vəsait yaradır. Artım əsasən aşağıdakı amillərlə əlaqələndirilə bilər:


- Əmək bazarında rəsmi məşğulluğun artması (xüsusilə elektron müqavilə sisteminin tətbiqi ilə);
- Qeyri-formal məşğulluğun azalması;
- Pensiya yaşının mərhələli artırılması (nəticədə pensiyaçıların sayı bir qədər azalıb).

Ümumiyyətlə, sığortaolunanların artımı DSMF-in gəlirlərinin yüksəlməsi deməkdir. Bu, pensiya ödənişlərinin maliyyə mənbələrinin güclənməsi ilə nəticələnir. Eyni zamanda, əhatəliliyin (coverage) artması sosial ədalət və gələcək pensiya təminatının sabitliyinə müsbət təsir göstərir.

Azərbaycan Respublikasında sosial sığorta sistemi, əhalinin sosial müdafiəsinin gücləndirilməsi və əmək bazarının rəsmiləşdirilməsi baxımından əsas institutlardan biridir. Son illər ərzində sığortaolunanların sayında müşahidə olunan artım, bir tərəfdən dövlət siyasətinin nəticəsi olaraq sosial təminatın genişlənməsi ilə əlaqələndirilir, digər tərəfdən isə qeyri-formal məşğulluğun tədricən azalmasının göstəricisidir. Hər bir sığortaolunan, DSMF-in məlumat sistemləri vasitəsilə özü barəsindəki fərdi uçot məlumatlarına çıxış imkanı əldə edir.

Vətəndaşların sosial müdafiə sisteminə inteqrasiyası onların əmək bazarındakı hüquqlarının qorunmasını və gələcək pensiya təminatını gücləndirir. Sığortaolunanların aktivliyi sosial təminat şəbəkəsinin effektivliyini artırır. Dövlət orqanları arasında məlumat mübadiləsinin elektron sistemlərlə təşkil olunması sığorta uçotunun dəqiqliyini artırmış, həm işəgötürən, həm də işçilər üçün inzibati yükü azaltmışdır.

Sosial sığorta sisteminin effektivliyi təkcə sığortaolunanların ümumi sayı ilə deyil, həm də onların yaş qrupları üzrə bölgüsü ilə müəyyən olunur. Əmək qabiliyyətli əhali arasında sosial sığortanın əhatəliliyi əmək bazarının leqallığı və gələcək pensiya yükünün idarə olunması baxımından mühüm əhəmiyyət daşıyır. 2019-2024-cü illər üzrə statistika göstərir ki, Azərbaycanda sosial sığorta sisteminə daxil olan fərdlərin yaş strukturu mühüm dəyişikliklərə məruz qalmışdır.



Qrafik 2. Sığortaolunanların yaş qrupu üzrə bölgüsü

Mənbə: *[3] məlumatları əsasında tərtib olunmuşdur.*

Qrafik 2-yə əsasən sığortaolunanların artımı ardıcıl şəkildə hər il müşahidə olunub, xüsusilə 2020–2022 dövründə elektron əmək müqavilələrinin geniş tətbiqi ilə bu artım sürətlənib. Bu, sosial sığorta sisteminin əhatəliliyinin genişləndiyini və rəsmi məşğulluğun artdığını göstərir. Əsas yaş qrupu 26–65 yaş (əmək qabiliyyətli əhali) arası həmin dövr ərzində ümumi sığortaolunanların 80%-dən çoxunu təşkil edir. Belə ki, 2019–2024-cü illərdə 26–65 yaş arası sığortaolunanların sayı 3,3 milyondan 4,06 milyona, yəni 23% artmışdır. Bu artım pensiya sisteminin davamlı maliyyələşməsi üçün əsas baza rolunu oynayır. Qeyd etmək lazımdır ki, əmək bazarına cəlb olunan rəsmi işçilərin artması pensiya sisteminin gəlirlərini artırır. 2019-2024-cü illər ərzində 15–25 yaş arası gənclərin sayı 48 mindən 355 min nəfərə, yəni 7,3 dəfə artım müşahidə olunmuşdur. Xüsusilə vurğulamaq lazımdır ki, əsasən ilk dəfə sığorta sisteminə daxil olan gənclərin sayının çoxalması uzunmüddətli dayanıqlılıq baxımından çox müsbət göstəricidir, çünki gələcək pensiyaçı nəsil artıq erkən yaşdan sistemə daxil olur. Nəticə etibarilə gənclərin sosial sığorta sisteminə qoşulması gələcək dövrlərdə maliyyə sabitliyinin təminatıdır. 65 yaşdan yuxarı olanlar (yaşlı sığortaolunanlar) arasında da artım müşahidə olunur. Belə ki, 2019-cu ildə 589 min nəfərdən 749 min nəfərə, yəni 27% artım olmuşdur. Bu, pensiya yaşına çatmış, lakin əmək fəaliyyətini davam etdirən və sosial sığorta ödənişləri edən şəxsləri əhatə edir. Onların sayının artması yaşlıların əmək bazarında aktivliyinin yüksəldiyini göstərir.

BƏT uzun müddətdir ki, pensiya yaşlı əhalinin əmək fəaliyyətini davam etdirməsi ilə əlaqədar olaraq tədbirlər həyata keçirir. Belə ki, pensiyaçılar arasında işləməyi seçən və ya işləməyi davam etdirməli olan yaşlı insanların işə olan ehtiyacları diqqət mərkəzində saxlanılır. Digər tərəfdən onların pensiya, tibbi və digər sosial müdafiə ehtiyaclarının ödənilməsinə nəzarət edilir.

Cədvəl 2.

Bəzi ölkələrdə əmək fəaliyyəti ilə məşğul olanların yaş aralığı, %-lə

Ölkələr	**15-24**	**25-54**	**55-64**	**65+**	**15-64**
Almaniya	52,0	88,3	74,1	7,4	79,2
Fransa	35,6	86,9	57,1	3,4	71,0
Finlandiya	53,8	87,5	73,0	6,4	78,4
Danimarka	60,2	86,3	74,6	8,5	79,0
Çili	26,4	74,9	60,3	**18,4**	62,7
Kanada	61,9	86,2	65,7	13,8	77,4
Avstraliya	66,2	84,5	67,1	14,2	77,9
Yaponiya	48,6	87,9	78,7	**25,5**	79,6
Litviya	36,6	90,4	75,0	10,9	78,5
Niderland	68,7	87,6	73,0	9,3	80,9
Norveç	55,6	86,0	74,3	10,5	78,2

İsveç	51,9	91,2	82,6	10,9	82,5
İsveçrə	65,0	91,2	76,5	11,1	84,1
Türkiyə	39,0	65,0	33,5	10,0	54,9
Böyük Britaniya	60,4	87,3	67,8	10,7	78,9
ABŞ	53,9	81,4	64,7	**19,4**	73
Rusiya	32,2	90,6	52,6	6,6	74,3

Mənbə: *[8] məlumatları əsasında tərtib olunub.*


Cədvəl 2-yə əsasən Yaponiya (25,5%), ABŞ (19,4%) və Çili (18,4%) kimi ölkələrdə 65 və daha yuxarı yaşda əmək fəaliyyəti ilə məşğul olanlar üstünlük təşkil edir. Hətta bəzi ölkələr 65 yaşdan yuxarı yaşda olan işçiləri işlə təmin etdikləri zaman dövlət tərəfindən vergi güzəştləri əldə edirlər. Ona görə də müəssisələr 65 yaşdan yuxarı işçiləri işlə təmin etməkdə maraqlı olur.

BƏT və ARƏƏSMN tabeliyində olan Dövlət Məşğulluq Agentliyinin birgə iştirakı ilə *"Əhalinin sosial cəhətdən həssas qrupları üçün inklüziv və layiqli iş yerlərinin yaradılması"* layihəsi həyata keçirilib. 2019-2024-cü illəri əhatə edən bu layihə ilkin olaraq Abşeron rayonu, Zaqatala, Mingəçevir, Şamaxı, Gəncə, Şəmkir, Göyçay, Bərdə, Sumqayıt, Füzuli, Bakı şəhərinin Sabunçu və Binəqədi rayonlarında həyata keçirilməyə başlanılmışdır. Layihə əsasında seçilmiş pensiyaçılara təlimlər keçirilmişdir" [6].

Almaniya, yaşlılara və əlil insanlar üçün müvəqqəti məşğulluğa kömək edən məşğulluğu təşviq etmək haqqında qanun qəbul etmişdir. Qanuna görə 50 yaşdan yuxarı işçiləri işəgötürən müəssisə, bu işçilərə ödənişlər etmək üçün subsidiya və kreditlə təmin olunur. Amerikada bu yanaşma gənclərə tətbiq edilir. Belə ki, dövlət gəncləri öyrətmək üçün göndərilən müəssisəni vergilərdən tamamilə uzaqlaşdırır. Bundan əlavə təlim keçən müəssisələr müəyyən olunmuş vergilərin ödənilməsindən tam və ya qismən azad olunurlar.

4. Pensiya yaşlı əhalinin əmək qabiliyyətli əhaliyə nisbəti

Pensiya sisteminin dayanıqlığını qiymətləndirmək üçün istifadə olunan əsas göstəricilərdən biri də **pensiya yaşlı əhalinin əmək qabiliyyətli əhaliyə nisbəti, yəni yaşlılıqdan asılılıq nisbətidir.** Pensiya yaşlı əhalinin əmək qabiliyyətli əhaliyə nisbətinin artmasına səbəb doğumun azalması və doğulanda gözlənilən ömür uzunluğunun artmasıdır. Bu isə dövlət üçün maliyyə problemlərinin yaranmasına səbəb olur. Hazırda dünya əhalisi qocalmaqdadır və 65 yaşdan yuxarı olan əhali ən sürətli böyüyən yaş qrupudur. BMT-nin statistikasına görə 2020-ci ildə pensiya yaşında olan əhalinin əmək qabiliyyətli əhaliyə nisbətinin ən yüksək olduğu ölkə Yaponiya (48%), Finlandiya və İtaliya (36,6%) olub.



Qrafik 3. Pensiya yaşlı (65+ yaşlı) əhalinin əmək qabiliyyətli (15-64 yaşlı) əhaliyə nisbəti (52 ölkə, 2020, %)

Mənbə: *[11] məlumatları əsasında tərtib olunub.*

BMT-nin proqnozuna əsasən 2050-ci ildə həmin göstərici artaraq yenə də Yaponiyada 74,3%, İtaliyada 68,8% və Finlandiyada 47,2% təşkil edəcəkdir. İspaniyada da yüksək artım müşahidə ediləcəkdir. Belə ki, əgər 2020-ci ildə İspaniya 65+ yaşda olan əhalinin əmək qabiliyyətli əhaliyə nisbəti 30,4% idisə, 2050-ci ildə 72,2% nisbətində olacaqdır. Qeyd etmək lazımdır ki, pensiya yaşında olan əhalinin əmək qabiliyyətli əhaliyə nisbətinin ən aşağı göstəricisi (5,2%) Cənubi Afrika Respublikasındadır. MDB ölkələri arasında ən yüksək göstəriciyə Gürcüstan (23,6%) və Rusiya (23,5) malikdir. 2023-cü ildə Azərbaycanda müvafiq göstərici 11,5% olmuşdursa, 2050-ci ildə artaraq 26,7% təşkil edəcəkdir. Qrafikdən göründüyü kimi, pensiya yaşında olan əhalinin əmək qabiliyyətli əhaliyə nisbəti 2050-ci ilə kimi əksər ölkələrdə artacaqdır.

5. Pensiyaların əvəzetmə əmsalı.

Pensiya sisteminin dayanıqlılığını qiymətləndirmək üçün **pensiyaların əvəzetmə əmsalı** mühüm göstəricilərdən biri hesab olunur. Pensiyaların əvəzetmə əmsalından, yəni orta aylıq pensiya məbləğinin orta aylıq əməkhaqqına nisbətindən pensiyaçıların gəlirlərinin əmək fəaliyyəti dövründəki gəlirlərlə müqayisədə fərqi müəyyənləşdirmək üçün istifadə edilir [9; 10]. Əvəzetmə əmsalı vasitəsilə pensiya sisteminin sosial ədalətlilik və iqtisadi səmərəlilik baxımından balansı qiymətləndirilir.

BƏT-in 102 saylı Konvensiyasına əsasən orta aylıq pensiyanın orta aylıq əməkhaqqına nisbəti 30 illik ödəniş dövrü üçün 40%-dən az olmamalıdır. Hazırda bu şərt Danimarka, İspaniya, İtaliya, Fransa, Lüksemburq, Yunanıstan, Portuqaliya, Xorvatiya, Rumıniya, Bolqarıstan, Sloveniya və Kipr kimi ölkələrdə özünü doğruldur. Daha sonra BƏT 128 saylı Konvensiyasında bu həddi 45%-ə yüksəltmişdir. Finlandiya, Avstriya, Niderland, Çexiya, Slovakiya, Belçika və Almaniyada orta aylıq pensiyanın orta aylıq əməkhaqqına nisbəti bu tələbə cavab verir [9; 10].


Azərbaycanda orta aylıq pensiya məbləğinin orta aylıq əməkhaqqına nisbəti 2014-cu ildə 38,3% idisə, 2024-cü ildə 47%-ə yüksəlmişdir. Deməli, ölkəmizdə orta aylıq pensiya məbləğinin orta aylıq əməkhaqqına nisbəti BƏT-in 102 saylı, yaşa görə əmək pensiyasının orta aylıq məbləğinin orta aylıq əməkhaqqına nisbəti isə 128 saylı konvensiyasının tələblərini ödəyir.

6. Minimum pensiya məbləğinin pensiyaçılar üçün yaşayış minimumuna nisbəti.

Pensiya sisteminin dayanıqlığını qiymətləndirmək üçün istifadə olunan əsas göstəricilərdən biri də **minimum pensiya məbləğinin pensiyaçılar üçün yaşayış minimumuna nisbətidir.** Minimum pensiya məbləğinin pensiyaçıların yaşayış minimumuna nisbəti – bu göstərici pensiyaçıların aldığı ən aşağı pensiyanın onların minimum yaşayış xərclərini nə dərəcədə ödədiyini göstərir. Bu, sosial müdafiə sisteminin effektivliyini və pensiyaçıların maddi rifah səviyyəsini qiymətləndirmək üçün çox mühüm bir sosial-iqtisadi göstəricidir. Əgər bu nisbət ≥ 100% olduqda pensiyaçıların aldıqları minimum pensiya onların zəruri yaşayış xərclərini qarşılaya bilir. Əgər bu nisbət < 100% olduqda isə minimum pensiya yaşayış minimumundan aşağıdır və bu, sosial risklər doğura bilər.

Qrafik 4-ə əsasən 2006–2025-ci illər ərzində Azərbaycanda minimum pensiya məbləği və pensiyaçılar üçün yaşayış minimumu ardıcıl artım nümayiş etdirmişdir. 2018-ci ildən etibarən minimum pensiya məbləği yaşayış minimumunu üstələyərək pensiya təminatının adekvatlığını təmin etmişdir. 2025-ci ilin əvvəlinə əsasən, minimum pensiya məbləğinin yaşayış minimumuna nisbəti 137,9 faiz təşkil etmişdir ki, bu da sosial müdafiə siyasətinin effektivliyini göstərir. Minimum pensiya məbləğinin yaşayış minimumunu ardıcıl olaraq üstələməsi pensiya sisteminin sosial ədalətlilik prinsipinə yaxınlaşdığını və pensiyaçılar üçün minimum yaşayış tələbatının təmin olunduğunu sübut edir.

Minimum pensiyanın yaşayış minimumunu üstələməsi sosial sabitlik və adekvatlıq baxımından müsbət haldır. Bu nisbətin yüksək saxlanılması üçün pensiya məbləğlərinin inflyasiya və həyat xərcləri ilə uzlaşdırılmış şəkildə indeksləşdirilməsi vacibdir. Bu göstərici dövlətin sosial siyasətinin hədəflərinə uyğunluğunu və icra səviyyəsini əks etdirir.




Qrafik 4. Azərbaycanda minimum pensiya məbləğinin pensiyaçıların yaşayış minimumuna nisbəti, %

Mənbə: *[2] məlumatları əsasında müəllif tərəfindən hesablanmışdır.*

7. MDSSH üzrə gəlirlərin və DSMF üzrə xərclərin proqnozlaşdırılması

Azərbaycan Respublikasında pensiya sisteminin dayanıqlığının təmin edilməsi ən mühüm göstəricilərindən biri məcburi dövlət sosialsığorta haqları (MDSSH) üzrə gəlirlərin və Dövlət Sosial Müdafiə Fondu (DSMF) üzrə xərclərin proqnozlaşdırılmasıdır. MDSSH üzrə gəlirlərin və DSMF üzrə xərclərin 2030-cu ilə qədər proqnozlaşdırılması sosial sığorta sisteminin maliyyə dayanıqlığını, gəlir-xərc tarazlığını və dövlətin sosial öhdəliklərinin uzunmüddətli icra potensialını qiymətləndirməyə imkan verir.


Aşağıdakı qrafikdə MDSSH üzrə gəlirlərin və DSMF üzrə xərclərin 2030-cu ilə qədər proqnozu əks olunmuşdur:



Qrafik 5. MDSSH üzrə daxil olmaların 2030-cu ilə qədər proqnozu

Mənbə: *[4] əsasında müəllif tərəfindən hesablanmışdır.*

Qrafik 5-də MDSSH üzrə daxilolmaların 2005–2030-cu illər ərzində dəyişmə tendensiyası və proqnoz göstəriciləri təqdim edilmişdir. Təhlil nəticəsində müəyyən edilmişdir ki, daxilolmaların zamanla dəyişməsi logaritmik asılılıq formasında ifadə olunur və bu əlaqə y = 4104ln(x) – 7834,7 tənliyi ilə xarakterizə edilir. Modelin determinasiya əmsalı (R^2 = 0,9967) olduqca yüksəkdir, bu da daxilolmaların zamanla dəyişməsinin demək olar ki, funksional asılılıq səviyyəsində izah olunduğunu göstərir. Yüksək korrelyasiya dərəcəsi modelin etibarlılığını və proqnozların statistik əsaslılığını təsdiqləyir [7]. Modelə əsasən, 2005–2021-ci illər ərzində MDSSH üzrə daxilolmaların artım tempi sabit, lakin mülayim xarakter daşımışdır. 2022-ci ildən etibarən isə həm nominal əməkhaqlarının, həm də sığortaolunanların sayının artması nəticəsində daxilolmaların kəskin yüksəlişi müşahidə olunur. Bu artım həm əmək bazarının rəsmi seqmentinin genişlənməsi, həm də elektron uçot və şəffaflıq mexanizmlərinin tətbiqi ilə izah olunur. Proqnoz nəticələri göstərir ki, MDSSH üzrə daxilolmalar 2030-cu ilə qədər sabit artım dinamikası ilə inkişaf edəcək və həmin ildə təxminən 4970,18 milyon manat səviyyəsinə çatacaqdır. Bu göstərici 2024-cü illə müqayisədə təxminən 29,3 faiz artım deməkdir. Modelin yuxarı və aşağı etibar intervalı (Upper və Lower Confidence Bound) proqnozların statistik sabitliyini qoruduğunu göstərir. Bu da gələcək dövrdə daxilolmaların risk səviyyəsinin aşağı, artım tendensiyasının isə dayanıqlı olduğunu təsdiq edir. Ümumilikdə, aparılmış reqressiya təhlili nəticəsində müəyyən edilmişdir ki, sosial sığorta daxilolmaları uzunmüddətli dövrdə müsbət logaritmik artım trayektoriyası üzrə inkişaf edir. Bu dinamika sosial sığorta sisteminin gəlir bazasının genişləndiyini, dövlətin fiskal dayanıqlıq potensialının isə gücləndiyini göstərir.



Qrafik 6. DSMF-in xərclərinin 2030-cu ilə qədər proqnozu

Mənbə: *[4] əsasında müəllif tərəfindən hesablanmışdır.*

DSMF xərcləri sosial təminat sisteminin maliyyə dayanıqlığının əsas göstəricilərindən biridir. 2005–2021-ci illəri əhatə edən məlumatlar əsasında aparılan statistik təhlil göstərir ki, fondun xərcləri uzunmüddətli dövrdə ardıcıl artım tendensiyası nümayiş etdirir. Bu artım sosial öhdəliklərin genişlənməsi, pensiya və müavinət məbləğlərinin yüksəldilməsi, həmçinin əhalinin sosial müdafiə tələbatının artması ilə izah oluna bilər. Empirik məlumatların modelləşdirilməsi nəticəsində DSMF xərcləri ilə zaman arasındakı əlaqə logarifmik reqressiya modeli formasında müəyyən edilmişdir:

$$y=1554.3\ln(x)-469.93$$

Burada y — DSMF xərclərini (mln. manatla), x isə zaman dəyişənini (illər üzrə) ifadə edir. Modelin determinasiya əmsalı R^2= 0,981 səviyyəsində olub, bu da dəyişənlər arasında yüksək korrelyasiyanın mövcudluğunu göstərir. Yəni DSMF xərclərindəki dəyişmələrin təxminən 87 faizini zaman amili izah edir ki, bu da modelin etibarlılığını təsdiqləyir. Logarifmik modelin seçilməsi, artımın uzunmüddətli dövrdə sabitləşmə meylinə malik olmasını göstərir. Başqa sözlə, DSMF xərcləri illər üzrə artmaqda davam etsə də, artım tempi zaman keçdikcə tədricən zəifləyir. Bu, sosial təminat sistemində maliyyə sabitliyinin formalaşmasının ilkin əlamətlərindən biri kimi qiymətləndirilə bilər.

Model əsasında aparılan proqnoz hesablamaları 2022–2030-cu illər üçün DSMF xərclərinin dinamikasını göstərir. Proqnoz nəticələrinə görə, fondun xərcləri 2030-cu ilə qədər təxminən 7000–7500 milyon manat diapazonunda dəyişə bilər. Proqnozun yuxarı və aşağı etibarlılıq hədləri arasında fərq məqbul səviyyədədir ki, bu da modelin statistik dayanıqlığını təsdiq edir. Nəticə etibarilə, DSMF xərclərinin artımı əsasən sosial öhdəliklərin genişlənməsi və demoqrafik amillərlə əlaqədar olsa da, logarifmik tendensiyanın formalaşması sistemin gələcək dövrdə maliyyə sabitliyinə keçid potensialını göstərir. Bununla belə, uzunmüddətli perspektivdə sosial sığorta gəlirlərinin optimallaşdırılması, qeyri-neft gəlirlərinin diversifikasiyası və əmək bazarında qeyri-formal məşğulluğun azaldılması kimi tədbirlər bu artımın idarəolunan səviyyədə saxlanmasına xidmət edə bilər.

Beləliklə, əgər hazırda MDSSH üzrə daxilolmalar ən yaxşı halda DSMF-in xərclərini 79,36% ödədiyi halda, aparılan proqnoz hesablamalara görə 2030-cu ildə MDSSH üzrə daxilolmalar ən yaxşı halda DSMF-in xərclərini 71% ödəyə biləcəkdir. Aparılan tədqiqat bizə göstərir ki, qeyri-formal məşğulluğun aradan qaldırılması üçün həyata keçirilən islahatlar nəticəsində MDSSH üzrə gəlirlərin həcminin artırılmasına nail olunsa da, 2030-cu ildə MDSSH üzrə daxilolmalar DSMF-in xərclərini 8,36% daha az ödəyəcəkdir [7].

Aparılan proqnoz hesablama əsasında müəyyən olundu ki, MDSSH üzrə gəlirlər DSMF-in xərclərini 8,36% az ödəcəyi halda, dövlət büdcəsindən transfertin həcmi artacaqdır. Bu isə dövlətin sosial yükünün artımına səbəb olacaqdır. Fikrimizcə, dövlətin sosial yükünü azaltmaq üçün MDSSH üzrə gəlirlər investisiyalaşdırılmalıdır ki, DSMF-in gəlirlilik səviyyəsi artsın. Bununla da müəyyən zamandan sonra DSMF öz-özünü maliyyələşdirən quruma keçirilə bilər.

Lakin qeyd edilməlidir ki, 17 aprel 2023-cü il tarixində Azərbaycan Respublikası Prezidentinin imzaladığı *"Dövlət Sosial Müdafiə Fondunun sərbəst vəsaitinin investisiyaya yönəldilməsi və investisiya gəlirindən istifadə edilməsi Qaydası"*nın təsdiq edilməsi haqqında Fərman qəbul edilmişdir və bu Fərman fondun idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi və sığorta ehtiyatlarının səmərəli istifadəsinin təmin olunması baxımından xüsusi əhəmiyyət kəsb edir [5]. Yeni qanuna əsasən investisiya gəlirlərindən aşağıdakı istiqamətlərdə istifadə oluna bilər: "*investisiya fəaliyyəti ilə bağlı xərclərin maliyyələşdirilməsi və təkrar investisiya məqsədləri; sosial müdafiə ilə bağlı islahatların maliyyələşdirilməsi; müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial müdafiəsi və sosial təminatı ilə bağlı tədbirlərin maliyyələşdirilməsi; Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində sosial infrastrukturun yaradılması ilə bağlı xərclər; Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilən digər istiqamətlərdə" [5].*


Bu Qanun əslində fondun sərbəst vəsaitlərinin maliyyə alətlərinə yönəldilməsi hesabına əlavə gəlir mənbələrinin formalaşdırılmasını və pensiya sisteminin uzunmüddətli maliyyə sabitliyinin möhkəmləndirilməsini nəzərdə tutmalı idi.

8. Müasir texnologiyaların tətbiqi

Pensiya fondlarının dayanıqlılığını təmin etmək üçün **müasir texnologiyaların tətbiqi** zəruridir. Rəqəmsallaşma pensiya sisteminin idarəçiliyini effektivləşdirməklə yanaşı, əməliyyat xərclərini azaltmaq və gəlirliliyi artırmaq imkanı yaradır. Pensiyaların müəyyən edilməsi, pensiya sisteminin idarə olunması və pensiyaların əhaliyə çatdırılması mexanizmi günün tələblərinə cavab vermədiyi üçün islahatların həyata keçirilməsini tələb edir. Fərdi uçota əsaslanan avtomatlaşdırılmış sığorta-pensiya sisteminin formalaşdırılması ölkəmizdə pensiya sahəsində aparılan əsaslı islahatlardan biri olmuşdur. Ölkəmizdə əhalinin pensiya xidmətlərinə əlçatanlığını təmin etmək üçün e-sosial mobil tətbiqi, elektron sənəd dövriyyəsi, pensiyaların proaktiv qaydada təyini pensiya sistemini daha dayanıqlı hala gətirmişdi.

Qrafik 6-ya əsasən 2019–2023-cü illər üzrə dinamika göstərir ki, proaktiv pensiya təyinatı mexanizmi Azərbaycanın sosial müdafiə sistemində mühüm struktur islahat kimi çıxış edir. Bu yanaşma vətəndaş-dövlət münasibətlərində etimadı artırmaqla yanaşı, sosial xidmətlərin səmərəliliyini də yüksəldir. Prosesin ardıcıl genişlənməsi, gələcəkdə digər sosial təminat növlərinin də proaktiv qaydada həyata keçirilməsi üçün institusional baza formalaşdırmışdır. Bu baxımdan, 2023-cü ildə qeydə alınan kəskin artım yalnız kəmiyyət göstəricisi deyil, eyni zamanda rəqəmsal idarəetmənin

keyfiyyət göstəricisidir, çünki o, sosial təminat sahəsində dövlət xidmətlərinin müasir texnoloji standartlara uyğunlaşdırıldığını nümayiş etdirir.



Qrafik 6. 2019-2023-cü illərdə proaktiv qaydada təyin olunan pensiyaçıların sayı

Mənbə: [1] məlumatları əsasında tərtib olunub.

9. Nəticə.

Pensiya sisteminin dayanıqlığı dedikdə, uzunmüddətli perspektivdə vətəndaşların pensiya təminatının davamlı maliyyə mənbələri hesabına ödənilə bilməsi, sistemin iqtisadi sabitliyə uyğunlaşma qabiliyyəti və sosial ədalət prinsiplərinin qorunması nəzərdə tutulur. Dayanıqlılığın qorunması məqsədilə gələcək dövrdə pensiya artımlarının daha çox sığorta ödənişləri hesabına maliyyələşdirilməsi, qeyri-rəsmi məşğulluğun azaldılması və aktiv-passiv sığortaolunan nisbətinin artırılması zəruridir. Aparılan tədqiqat göstərir ki, Azərbaycan Respublikasında pensiya sistemi sosial müdafiə siyasətinin əsas komponenti olmaqla, son illərdə həm institusional, həm də maliyyə baxımından mühüm dəyişikliklərə məruz qalmışdır. 2006–2024-cü illər ərzində pensiya xərclərinin ÜDM-ə nisbəti artmış, sosial sığorta sisteminə cəlb olunanların sayı isə 65% yüksəlmişdir. Bu, həm əmək bazarının rəsmiləşməsi, həm də sosial sığorta mexanizmlərinin güclənməsi ilə əlaqədardır.

Eyni zamanda, aktiv-passiv sığortalı nisbətinin 2,4-dən 4,7-yə yüksəlməsi sistemin maliyyə dayanıqlığının artdığını göstərir. Minimum pensiyanın yaşayış minimumunu üstələməsi (137,9%) isə sosial ədalət və adekvatlıq baxımından mühüm nailiyyətdir. Proqnoz modelləri göstərir ki, 2030-cu ilə qədər həm MDSSH üzrə daxilolmalar, həm də DSMF xərcləri ardıcıl artım dinamikası göstərəcəkdir. Bununla belə, uzunmüddətli dövrdə əhalinin qocalması və əmək qabiliyyətli əhalinin azalması riskləri mövcuddur. Buna görə də pensiya sisteminin dayanıqlığının qorunması üçün gəlirlərin strukturunda diversifikasiya və institusional islahatların davam etdirilməsi vacibdir.

İstifadə olunmuş ədəbiyyat / *References*

1. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi: [Elektron resurs] // URL: https://sosial.gov.az/az
2. “Azərbaycanda səhiyyə, sosial müdafiə və mənzil şəraiti” Statistik məcmuə: [Elektron resurs] // Bakı: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, - 2025. URL:https://www.stat.gov.az/source/healthcare/
3. Dövlət Sosial Müdafiə Fondu: [Elektron resurs] // URL: https://dsmf.gov.az/az/sigorta/sosial-sigorta/sigortaolunanlar/umumi-melumat
4. “Dövlət sosial müdafiə fondunun 2025-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanun layihəsinə Azərbaycan Respublikası Hesablama Palatasının rəyi: [Elektron resurs] // Bakı: - 2025.
URL: https://sai.gov.az/files/DSMF_yekun.pdf

5. “Dövlət sosial müdafiə fondunun sərbəst vəsaitinin investisiyaya yönəldilməsi və investisiya gəlirlərindən istifadə edilməsi Qaydası”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı // [Elektron resurs] 17 aprel 2023-cü ildə qəbul edilmişdir. – Bakı: Qanun, -2023. URL: https://e-qanun.az/framework/53957
6. Əhalinin sosial cəhətdən həssas qrupları üçün inklüziv və layiqli iş yerlərinin yaradılması” layihəsi: [Elektron resurs] // ARƏƏSMN və Dövlət Məşğulluq Agentliyi. URL: https://dma.gov.az/layiheler/sosial-layiheler/sosial-layihe-1
7. Həşimova, V.X. Azərbaycanda pensiya sisteminin təkmilləşdirilməsi istiqamətləri // - Bakı: İqtisadi Artım və İctimai Rifah, - 2024: Xüsusi buraxılış, - s. 115-126. URL:https://economics.org.az//images/fotos/iqtisadi_art%C4%B1m/2024_xb/jurnaliqtartmXB.pdf
8. Labour Force Statsitics 2021: [Electronic resource] / OECD, 2021. URL: https://read.oecd-ilibrary.org/employment/oecd-labour-force-statistics-2021_177e93b9-en#page166
9. Pension Markets in Focus 2022: [Electronic resource] / OECD Publishing, 2022. URL:https://www.oecd.org/daf/fin/private-pensions/Pension-Markets-in-Focus-2022-FINAL.pdf
10. Pension Funds in Figures 2021: [Electronic resource] / OECD Publishing, 2021. URL:https://www.oecd.org/daf/fin/private-pensions/Pension-Funds-in-Figures-2021.pdf
11. World Population Prospects 2022: [Electronic resource] / The Population Division of the Department of Economic and Social Affairs of the United Nations, 2022. URL: https://population.un.org/wpp/

Пути обеспечения устойчивости пенсионной системы в Азербайджанской Республике

Вафа Гашимова
к.э.н., ведущий научный сотрудник Института экономики
МНО Азербайджанской Республики,
старший преподаватель Азербайджанского технического университета
vafahashimova86@gmail.com
https://orcid.org/0000-0002-0392-1329

Резюме: В статье комплексно анализируется устойчивость пенсионной системы Азербайджанской Республики в условиях современных демографических и экономических вызовов. В исследовании с использованием методов статистического сравнительного анализа и прогнозирования рассматриваются ключевые показатели: соотношение пенсионных расходов к ВВП, соотношение активных и пассивных застрахованных лиц, коэффициент демографической нагрузки пожилого населения, коэффициент замещения пенсий, соотношение минимальной пенсии к прожиточному минимуму пенсионеров, а также прогнозы доходов по обязательному государственному социальному страхованию и расходов Государственного фонда социальной защиты населения до 2030 года. Результаты исследования показывают, что в 2006–2024 годах доля пенсионных расходов в ВВП увеличилась, однако рост числа застрахованных лиц на 65% и повышение соотношения активных и пассивных застрахованных с 2,4 до 4,7 способствовали укреплению финансовой устойчивости системы. Превышение минимальной пенсии над прожиточным минимумом на 137,9% обеспечивает социальную адекватность пенсионного обеспечения. Прогнозы свидетельствуют о дальнейшем росте доходов по социальному страхованию, однако к 2030 году они не смогут полностью покрыть расходы фонда. В статье подчеркивается необходимость инвестирования пенсионных средств и расширения цифровизации как ключевых направлений обеспечения долгосрочной устойчивости пенсионной системы.

Ключевые слова: пенсия, пенсионные расходы, устойчивость, застрахованные лица